Xalq qəzeti.- 2023.- 25 iyul.- S.15.

# Şuşanı görməyən şuşalı qəhrəman haqqında film

**Azərbaycan Respublikasının Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Agentliyinin maliyyə dəstəyi ilə "Azərbaycan – İraq" Mədəni Əlaqələr İctimai Birliyi "neo-təbliğat" adlı layihə əsasında "Şuşalı qəhrəman İsrafil İbrahimov: "Yalnız irəli - 4" sənədli filminin çəkilişlərinə start verib. Sentyabrın sonunadək başa çatacaq layihə haqqında İctimai Birliyin rəhbəri Tahirə Məmmədova məlumat verərək bildirib:**

Gənclərimizin azərbaycançılıq ideologiyası və hərbi-vətənpərvərlik ruhunda formalaşmasına, yeni nəslin milli-mənəvi dəyərlərlə böyüməsinə, sahib olduqları vizual-virtual məhsulların, məlumatların hazırlanaraq geniş təbliğatına, tanıtımına və s. xüsusi önəm verilməlidir. Bu baxımdan II Qarabag müharibəsində iştirak edərək, canlarını Vətən uğrunda fəda edən şəhid qəhrəmanlarımızın geniş kütlələrə tanıdılması, onların müqəddəs amallarının təbliği, gənclərdə vətənpərvərlik hissinin, azərbaycansevərliyin daha da gücləndirilməsi çox vacibdir. II Qarabağ savaşında baş verənlər bir daha sübut etdi ki, Vətən torpağı yağı düşmənlərin təhdidlərinə məruz qalanda belə, onun uğrunda canını vermək və ən qatı düşmənə də qalib gəlmək mümkündür.

Əslən Qarabağdan olan şəhid qəhrəmanlar haqqında ərsəyə gələn ekran işi "neo-maarifçilik" tanıtım və təqdimatlar vasitəsilə geniş real və virtual kreativ-vətənpərəvərlik aksiyaları keçirmək, Vətənə diqqət, saygı və sevgi



aşılamaq, torpaqlarımız uğrunda canını fəda edənlərin simasında dəyərli şəxslərə xalqın, gənclərimizin ehtiramını artırmaq qarşımızda duran aktual məsələlərdəndir.

Əlavə edək ki, şuşalılar haqqında vizual ensiklopediyanın bir hissəsi olan "Yalnız irəli - 4" sənədli filmi, Qarabağ uğrunda qəhrəmanlıq göstərərək şəhidlik zirvəsinə qalxmış igid hərbçi İsrafil Zülfüqar oğlu İbrahimovun həyat və döyüş yolundan bəhs edir. O, Vətən müharibəsində iştirak edərək, Cəbrayıl, Qubadlı, Laçın uğrunda döyüşlərdə igidlik göstərmiş peşəkar hərbçilərdən biri olub. Ömründə bir dəfə də olsa Şuşanı görməyən bu qəhrəmanın şərəfli döyüş yolu, Vətənə xidmətləri gənclərimizə nümunədir.

Xatırladaq ki, 1997-ci il oktyabrın 16-da Bakıda anadan olan kiçik çavuş rütbəli İsrafil Zülfüqar oğlu İbrahimov Lənkəranda Sərhəd qoşunlarında xidmət edib. 2017-ci ilin mayında hərbi xidməti başa vurub. Xüsusi Hərbi hissədə sülhməramlı qoşunlarda müddətdən artıq həqiqi hərbi xidmətə başlayıb,1 il 6 ay qulluqdan sonra könüllü olaraq xüsusi təyinatla ön cəbhəyə göndərilib. Cəbrayıl, Qubadlı,Laçın uğrunda döyüşlərdə iştirak edib. 16 oktyabr 2020-ci ildə Laçın uğrunda ağır döyüşlərdə şəhidlik zirvəsinə ucalıb. Ölümündən sonra göstərdiyi igidliyə görə Prezident, Ali Baş Komandan İlham Əliyevin sərəncamı ilə "Vətənə xidmətə görə 3-cü dərəcəli orden, "Vətən uğrunda", "Cəbrayıl uğrunda", "Qubadlı uğrunda", "Laçın uğrunda" medalları ilə təltif edilib.

***Fidan HÜQUQQIZI, "Xalq qəzeti"***